# Universal döyüşçümüz 5-ci dəfə Avropa çempionu tituluna yiyələnib

***Avqustun 27-dən 30-dək Rusiyanın Medin şəhərində universal döyüş üzrə gənclər arasında Avropa birinciliyi keçirilib. Yarışda 24 ölkədən 257 idmançı qüvvəsini sınayıb. 18-20 yaşlı idmançılar arasında keçirilən Avropa birinciliyində ölkəmizi universal döyüş üzrə gənclərdən ibarət yığma komandanın baş məşqçisi Elşən İsmayılovun rəhbərliyi altında 8 idmançı təmsil edib. Təmsilçilərimiz uğurla çıxış edərək 1 qızıl, 3 gümüş, 2 bürünc medal qazanıblar.***



Oğlanlar arasında Nicat Əliyev (80 kq) bütün rəqiblərini üstələyərək Avropa çempionu adını qazanıb. Bununla. idmançımız bu titula 5-ci dəfə yiyələnib. Anar Rüstəmov (60 kq), Qəhrəman Xələfov (65 kq), Nail Kərimov (75 kq) gümüş medal əldə ediblər. Mahir İsgəndərov (60 kq), Qəzənfər Namazov (90 kq) bürünc medallara sahib çıxıblar. Ümumi hesabda Azərbaycan yığması Rusiyadan sonra ikinci pillədə qərarlaşıb. Bolqarıstan millisi üçüncü olub. Azərbaycan Universal Döyüş Federasiyasının prezidenti Azər Həsənov idmançılarımızın Avropa birinciliyindəki çıxışını yüksək qiymətləndirdi: *"Artıq neçə illərdir ki, universal döyüş üzrə yığmamızın üzvləri müxtləif yaş qrupları üzrə keçirilən Avropa və dünya səviyyəli yarışlarda uğurla çıxış edirlər. Budəfəki Avropa çempionatında da komandamız yüksək nailiyyət qazanıb. Ötənilki analoji yarışla müqayisədə, bu dəfə komandamız daha uğurla çıxış edib. Qeyd edim ki, bu yaş qrupu üzrə idmançılarımız noyabr ayında dünya birinciliyində qüvvələrini sınayacaqlar. Qarşıda idmançılarımızı sentyabrın 24-30-da Rusiyanın Anapa şəhərində 14-15,16-17 yaşlı idmançılar arasında keçiriləcək dünya birinciliyi gözləyir. Hazırda yığma komanda Tofiq Bəhramov adına stadiononun universal döyüş üzrə məşq bazasında təlim-məşqlərini davam etdirir. Dekabrda kişilər arasında keçiriləcək dünya çempionatı da bu ilin əsas yarışlarındandır. Ümid edirəm ki, idmançılarımız qarşıdakı yarışlarda da onlara bəslənilən etimadı doğruldacaqlar".*



İdmançılarımızla birgə yarışlara yolllanan gənclərdən ibarət yığmanın baş məşqçisi Elşən İsmayılov da təmsilçilərimizin çıxışlarını uğurlu hesab edir: *"Avropa birinciliyində 24 dövlət arasında komandamız ikinci oldu. İdmançılarımız yarışa hərtərəfli hazırlıqlı idilər. Xatırladım ki, ötən il Medində gənclər arasında keçirilən Avropa birinciliyində komandamızın üzvləri 1 qızıl, 1 gümüş, 1 bürünc medal qazanmışdılar. Yığmamız ümumi hesabda 4-cü olmuşdu. Bu il 80 kq çəki dərəcəsində qüvvəsini sınayan Nicat Əliyev ötən il 75 kq-da Avropa çempionu adını qazanmışdı. Qeyd edim ki, Nicat bu uğuru ilə 5-qat Avropa çempionu adını qazandı. Komandamızın medal qazanan digər üzvləri finalda, əsasən Rusiya idmançıları ilə üz-üzə gəldilər. Əsas rəqiblərimizdən olan Rusiya təmsilçilərinə idmançılarımız 1-2 xal fərqi ilə uduzdular. Bundan başqa, Ukrayna, Bolqarıstan Rumıniyadan da güclü idmançılar bu yarışa qatılmışdılar. Noyabrda Ukraynada bu yaş qrupu üzrə dünya birinciliyi keçiriləcək. Əlbəttə dünya birinciliyi daha çətin olacaq. Həmin yarışa Avropa birinciliyində çıxış edən heyətimiz yollanacaq. Qarşıda iki təlim-məşqimiz nəzərdə tutulub. Bunlardan biri Qusarda, digəri Mingəçevirdə olacaq. Məşqlərdə əsasən fiziki hazırlığa diqqət yetirəcəyik. Çünki idmançılarımızın taktiki-texniki hazırlığı yüksəkdir".*

## "Titulu qoruyub saxlamaq onu qazanmaqdan çətindir"

Avropa birinciliyində qızıl medal qazanmış Nicat Əliyev də yarış təəssüratlarını bizimlə bölüşdü: "Avropa birinciliyndə 4 döyüş keçirdim. İlk döyüşdə Moldova təmsilçisi ilə qarşılaşdım. Sonra Finlandiya və Rusiya idmançılarını mübarizədən kənarlaşdırdım. Finalda Ukrayna idmançısına qalib gəldim. Döyüşlərim çətin olsa da, əsas odur ki, çəkdiyim əziyyətin bəhrəsini gördüm. Məncə titulu qoruyub saxlamaq onu qazanmaqdan çətindir. Sevinirəm ki, yenidən Avropa çempionu tituluna yiyələndim. Qeyd edim ki, 5 dəfə Avropa, 3 dəfə dünya birincisi adına layiq görülmüşəm. Qarşıdan gələn dünya birinciliyinə daha ciddi hazırlaşmalıyam. Əsas məqsədim yenidən dünya çempionu adına yiyələnməkdir.

*Şahmat*

# "Olimpiya dünyası-2012" Beynəlxalq yarışları

Qəzetimizin 2012-ci il üçün şahmat bəstələrinin tərtibi üzrə keçirdiyi beynəlxalq yarışlara göndərilmiş yeni məsələ və etüdləri təqdim edirik. Xatırladaq ki, şahmat guşəsi həftədə bir dəfə, çərşənbə axşamı və ya cümə günləri işıq üzü görür. Orijinal bəstələri guşənin aparıcısı, eyni zamanda yarışın təşkilatçısı İlham Əliyevə (Sumqayıt) göndərmək lazımdır. E-mail: **ilhamaliev@mail.ru**. Bəstələrin son göndəriş tarixi: 20.10.2012.

2012-ci il üçün bölmələr üzrə yarışların hakimlərini təqdim edirik: **+= (Etüdlər)** - Oleq Pervakov (Rusiya), **#2 (İkigedişli)** - Vasili Dyaçuk (Ukrayna), **#3 (Üçgedişli)** - Valeriy Kopıl (Ukrayna), **#N (Çoxgedişli)** - Yuri Qordian (Ukrayna).

*885. Aleksandr Tsaplin (Ukrayna)*



*#2 (2 gedişə mat)*

*886. Aleksandr Tsaplin (Ukrayna)*



*#2 (2 gedişə mat)*

*887. Alberto Armeni (İtaliya)*



*#2 (2 gedişə mat)*

*888. Leonid Makaronez (İsrail)*



*#3 (3 gedişə mat)*

*889. L.Lyubaşevskiy, U.Orlov, V.Şevçenko (İsrail, Ukrayna)*



*#8 (8 gedişə mat)*

*890. İuri Akobia, Mario Garcia (Gürcüstan, Argentina)*



*Uduş (+)*

**875. Aleksandr Tsaplin (Ukrayna)** 1.Th2!. **Mənsur Məmmədov və Süleyman Abdullayev (Bakı)** 1.Ac4! (2.Axc3#). **877. Yochanan Afek (İsrail / Hollandiya)** 1.h8A+! Şg7 2.Şf2 Şxh8 3.Şxg2 Şg7 4.Şg3 Şf6 5.Şxg4 Şe5 6.Şf3 Şd4 7.Şf4 Şd5 8.Şe3 Şc4 9.Şe4 Şb4 10.Şxd3 Şxa4 11.Şc4 Şa3 12.d4 Şb2 13.d5 a4 14.d6 a3 15.d7 a2 16.d8V a1V 17.Vd2 Şa3 18.Vb4+ Şa2 19.Vb3#. **878. Anatoli Skripnik və Valeri Kalaşnikov (Rusiya)** 1.h7 Şb1 2.h8V a1V 3.Vxa1+ Şxa1 4.h6 e2 5.h7 Şb1 6.h8V e1V 7.Vb8! Ve2+ 8.Şh4! [8.Şg5? Vxe4! zz] 8...Vxe4+ 9.Şg5 Şc1 10.Vc7+ Fc6 11.Şh6 Vc4 12.Şg5 Ve6 13.Vf4+ Şc2 14.Vf2+ Şc3 15.Vc5+ =. **879. Qriqoriy Popov (Rusiya)** 1.Ad6+ Şe5 2.Ff4+ Şf6 3.Axe4+ Şf5 4.Ad6+ Şf6 5.Fg5+ Şe5 6.Af7+ Şf5 7.e4+ uduş. **880. Qriqoriy Popov (Rusiya)** 1.Ae3+ Şb3 2.c7 b4 3.c8F! [3.c8V? Tf1+ 4.Axf1 pat] 3...Txf6 4.Fg4 Tc6 5.Fd1+ Tc2 6.Af2 h1V 7.Axh1 h2 8.Af2 h1V 9.Axh1 h3 10.Af2 h2 11.Axd3 h1V 12.Ac5#. **881. Qriqoriy Popov (Rusiya)** 1.Fd5+ Şf4 2.Ag2+ Axg2 3.Fa8 Th6 4.Ad5+ Şe4 5.Ae7+ Şf4 6.Fxg2 Td6 7.Şb2 Txd4 8.Ag6#. **882. Qriqoriy Popov (Rusiya)** 1.Şe8! (2.Tc6+ Şxe5 3.Şxf7 Şe4 4.Te6#), 1...d2- 2.Ta1 ~ 3.Ta6+ c6 4.Taxc6#, 1...f2 2.Th1 ~ 3.Th6+ f6 4.Txf6#. **883. Qriqoriy Popov (Rusiya)** 1.Td8+ Şxa7 2.Fb8+ Şa8 3.Fe5+ Şa7 4.Fg7! Fxg7 5.Ta1 ~, a3 6.Txa4#, Txa3#. **884. Qriqoriy Popov (Rusiya)** 1.Ff2+ Te3 2.Fh4 Te6 3.Fd8 Txd6 4.Fa5 Tc6 5.Fe1 Fe3 6.Fg3 Te6

7.Fb8 ~ 8.Fa7+ Tb6 9.Fxb6#, 6...d6 7.Fh4 Ff4, Fg5 8.Ff2+ Fe3 9.Fxe3#.

***İ. Əliyev (Sumqayıt)***
***Beynəlxalq hakim***

# Futbol mütəxəssisləri və paytaxt sakinləri "Neftçi"dən yeni qələbələr gözləyirlər

***"Neftçi" Avropa Liqasının qrup mərhələsinə vəsiqə qazandı. Təmsilçimiz H qrupunda İtaliyanın "İnter", Serbiyanın "Partizan" və Rusiyanın "Rubin" komandaları ilə mübarizə aparacaq. "Olimpiya dünyası" qəzeti ənənəsinə sadiq qalaraq, paytaxt sakinləri arasında "Neftçi"nin uğuru ilə bağlı sorğu keçirdi. Respondentlərin əksəriyyəti təmsilçilərimizin qələbəsini yüksək qiymətləndirdi və komandamızdan yeni-yeni uğurlar gözlədiklərini vurğuladılar.***

***Vaqif Sadıqov (futbol mütəxəssisi):***

- Bu anı uzun illərdi ki, gözləyirdik. Nəhayət, klublarımızdan biri bizə sevinc yaşatdı. "Neftçi" 1995-ci ildəki hadisələrə görə, Kipr klubu və azarkeşlərinə avroliqanın qrup mərhələsinə vəsiqə qazanmaqla tutarlı cavab verdi. Bunu yalnız alqışlamaq lazımdır. "Neftçi"ni bu uğur münasibəti ilə təbrik edirəm.

Ölkə çempionatındakı matçların təxirə salınması "Neftçi"nin onların xeyrinə oldu. Təmsilçimiz Avropa yarışlarında gözəl bir nəticə əldə etdi. Fikrimcə, tamamilə düzgün qərar qəbul olunmuşdu. Bir şeyi unutmamalıyıq ki, "Neftçi"nin qələbəsi ruh yüksəkliyi baxımından millinin də çıxışına müsbət təsir göstərəcək.

Əgər Bakı təmsilçisi qrup mərhələsinə düşməyi bacarıbsa, deməli, komandada özünəinam var. Fikrimcə, təmsilçimiz "Partizan" klubunu məğlub etməklə yanaşı, "İnter" və "Rubin"ə qarşı da sonadək mübarizə aparacaq. Məncə, "Neftçi", rəqiblərinin güclü olmasına baxmayaraq, onlardan xal almağı bacaracaq.

***Ağasəlim Mircavadov (futbol mütəxəssisi):***

- "Neftçi" APOEL klubu ilə oyunda əsl komanda oyunu nümayiş etdirməklə qələbə qazandı. Avroliqada zəif klub yoxdur. Əgər "Neftçi"də avroliqanın qrup mərhələsinə yüksələ bilibsə, deməli, heç də "İnter", "Rubin" və "Partizan" klublarından geri qalmır. Fikrimcə, təmsilçimiz bu klublarla oyunda layiqli müqavimət göstərərək xal ala bilər. Mənə elə gəlir ki, "Neftçi" qrup mərhələsində bir qədər rahat və psixoloji baxımdan sərbəst çıxış edəcək. Çünki komanda artıq ilk işin öhdəsindən uğurla gəlib. Bu klubun əsas məqsədlərindən biri avroliqanın qrup mərhələsinə yüksəlmək və mümkün qədər çox xal toplamaq idi. Bildiyiniz kimi "Neftçi" klubu ilk oyununu Serbiyada "Partizan" klubuna qarşı keçirəcək. Əgər baş məqçi rəqibin oyun üslubunu düzgün təhlil edə bilsə, onda rəqibdən xal almaq mümkün olar. Hazırda komandada əhval-ruhiyə yüksək səviyyədədir. Çalışmaq lazımdır ki, qrup mərhələsində də həmin qələbə ruhu qorunub saxlanılsın. Əgər "Neftçi" APOEL klubu ilə oynadığı oyunu "Partizan"la görüşdə də göstərə bilsə, o zaman uğurlu nəticəyə ümüd etmək olar. Şərt o deyil ki, 90 dəqiqə ərzində komanda hücum etsin. Əsas odur ki, komanda yaratdığı qol vəziyyətlərindən maksimum yararlansın və hesabı qorusun. Belə olduğu təqdirdə, Bakıda "İnter", "Rubin" və "Partizan" kimi klublardan da xal almaq olar. Onu da qeyd edim ki, "Neftçi" bu il üç "cəbhədə" - həm avroliqa, həm Azərbaycan Premyer Liqası, həm də ölkə kubokunda mübarizə aparacaq. Bu baxımdan "flaqman"ın işi heç də asan olmayacaq. Oyunların qrafikində bir qədər sıxlıq yaranacaq. Amma bunun özü də "Neftçi"nin təcrübəsinin artmasında bir sınaq olacaq. Hesab edirəm ki, bu, "Neftçi" klubu üçü çox gözəl bir şansdır və inanıram ki, komandamız bu şansdan yararlanacaq.

***Arif Əsədov (futbol mütəxəssisi):***

- İlk növbədə "Neftçi" klubunun rəhbərliyini və futbolçularını bu möhtəşəm qələbə münasibətilə təbrik edirəm. Oyundan əvvəl hər iki komanda favorit kimi görünürdü. Lakin, azacıq da olsa, üstünlük APOEL komandasına verilirdi. Amma "Neftçi" klubu bu qələbə ilə bir daha sübut etdi ki, heç də belə deyil. Yəni hər şey meydançada həll olunur. Mən "Neftçi" komandasının qrup mərhələsinə yüksəlməsini sürpriz nəticə hesab etmirəm. Çünki avroliqada güclü klublar mübarizə aparır. "Neftçi"də bu qələbə ilə bir daha avroliqada mübarizə aparmağa layiq bir klub olduğunu təsdiqlədi. Düzdür, təmsilçilərimizin qrupdan çıxmağı o qədər də real görsənmir, amma, buna baxmayaraq, komandada qələbə ruhu var. Bu inamla doğma meydanda bir sıra komandaları məğlub etmək olar. Əsas odur ki, komandaya təzyiq edilmir. Belə olan halda, futbol oynamaq rahat olur. Bundan əlavə, komandanın heyətinə cəlb olunan futbolçular da artıq "Neftçi"nin oyun üslubuna uyğunlaşıb. Təmsilçimizin Çempionlar Liqasındakı oyununa nəzər saldıqda müdafiə xəttində bir qədər boşluq hiss olunurdu. Bu, əsasən, özünü İsrailin "Hapoel" klubu ilə oyunda göstərdi. Məhz müdafiədə buraxılan kobud səhvlər nəticəsində "Neftçi" Çempionlar Liqasında mübarizəsini dayandırdı. Lakin Mahir Şükürovun komandaya gəilişi və İqor Mitrevskinin yenidən geri çağrılması komandanın müdafiə xəttini bir qədər möhkəmləndirdi. Hazırda komandanı əla səviyyədə olduğunu hesab edirəm. "Neftçi" qrup mərhələsində ilk oyununu səfərdə "Partizan" klubuna qarşı keçirəcək. Nəzərə alsaq ki, bu klubun azarkeşləri APOEL-dən də çılğındırlar, onda komandamızı Serbiyada çətin mübarizə gözləyəcəyini söyləmək olar. Amma "Neftçi" həmişə bütün turnirlərdə yüksək hədəflər uğrunda mübarizə aparıb. İnanıram ki, "Neftçi" bu çətin işin öhdəsindən gələ biləcək. Bir daha qrup mərhələsində təmsilçilərimizə uğurlar arzulayıram.



***Orxan Hacıyev (mühafizəçi):***

- "Neftçi" APOEL oyununda Azərbaycan futbolunun irəli getdiyinin şahidi oldum. "Ağ-qaralar" bu qələbə ilə böyük addımlardan birini atdi. İnşallah, digər komandalarımızda "Neftçi" kimi öz oyunları ilə avrokuboklarda bizləri sevindiriərlər. Komandamızın qrup mərhələsindəki ilk oyunu nəinki mənim, bütün Azərbaycan xalqının çoxdan gözlədiyi bir an oacaq. Təmsilçimizə avroliqada uğurlar arzulayıram. Fikrimcə, təmsilçmizin qrup mərhələsində bəxti gətirib. İnanıram ki "Neftçi" bu komandalara layiqli müqavimət göstərəcək. "İnter"in 3 il əvvəl Çempionlar Liqasını qalibi olmaına baxmayaraq, elə də məğlubedilməz bir komanda hesab etmək olmaz. "Rubin" də 3 il əvvəl Çempionlar Liqasının dörtqat qalibi "Barselona"nı məğlub edərək hər kəsi təəccübləndirmişdi. "Partizan"ı da orta səviyyəli bir komanda hesab etmək olar. Təmsilçimiz bu komandalardan heç də zəif deyil. "Neftçi" əgər keçən il Çempionlar Liqasında Fransanın "Lion" klubunu mübarizədən kənarlaşdıran APOEL-i məğlub edə bilibsə, qrup mərhələsində də bu komandalara "başağrısı" olacaq. Bu səbəbdən də təmsilçimizin qurup mərhələsindən çıxacağına inanıram. Yəqin ki, "Neftçi" yeni-yeni qələbələrlə bizləri bir daha sevindirəcək. Mənə elə gəlir ki, "Neftçi" bu ilin sürpriz komandalarından biri olacaq. Çalışacağam ki, stadiona gedərək "Neftçi"nin oyunların canlı izləyim.

***İdris Kərimov (sürücü):***

- "Neftçi" Azərbaycan klubları arasında ən köklü və öndə gedən klublardan biridir. Mən "Neftçi"nin APOEL klubunu məğlub edərək avroliqanın qrup mərhələsinə yüksəlməsinə bir sensasiya kimi baxmıram. Həqiqətən də təmsilçimiz Kiprdə öz oyunu ilə qələbəyə layiq olduğunu bir daha sübut etdi. Baxmayaraq ki, həmin oyunda rəqib azarkeşlər təmsilçilərimizə təzyiq göstərirdilər, amma bütün bunlara rəğmən, "Neftçi" möhtəşəm qələbəsi ilə stadiona toplaşan 23 min APOEL azarkeşini susdura bildi. APOEL klubunu heç də zəif bir klub hesab etmək olmaz. Çünki bu klub keçən il 1/8 finalda Fransanın ən adlı-sanlı klublarından birini - "Lion"u məğlub edərək 1/4 finala vəsiqə qazanmışdı. Burada isə İspaniya çempionu "Real" klubuna məğlub olaraq mübarizəsini 1/4 finalda dayandırmışdı. Bütün bunları nəzərə aldıqda, "Neftçi"nin qrupdan çıxmaq şansını yüksək qiymətləndirirəm. Komandanın heyəti çox gözəl qurulub. Futbolçular da artıq bir-birinə uyğunlaşıblar. Fikrimcə, "Neftçi" hələ bundan sonra da qələbələrlə bizləri sevindirəcək. Düzdür, təmsilçimizi qrup mərhələsində güclü rəqiblərlə çox çətin oyunlar gözləyir. İnanıram ki, bütün bu çətinliklərə baxmayaraq, "Neftçi" qrup mərhələsi səddini keçə biləcək. Komandamıza dəstək olmaq üçün stadiona oyunu izləməyə gedəcəyəm.

***Ramiq Bayramlı (Memarlıq və İnşaat Universitetinin tələbəsi):***

- Kiprin adlı-sanlı klublarından biri olan APOEL ilə cavab görüşündə "Neftçi" öz oyunu ilə bir daha sübut etdi ki, avroliqada mübarizə aparmağa layiq bir klubdur. Bu qələbə nəinki "Neftçi"nin, bütövlükdə Azərbaycan futbolunun qələbəsidir. Qələbənin əsas memarlarından sayılan Böyükağa Hacıyevə təşəkkürlərimi bildirirəm ki, belə əzmkar, mübariz komanda yaradıb. Çünki "Neftçi" erməni bayrağının olduğu bir yerdə öz oyununu nümayiş etdirərək qələbə qazandı. Bu, nəyə desən dəyərdi. Artıq "Neftçi"nin rəqibləri də bəlli olub. Hesab edirəm ki, komandamız "Partizan" və "Rubin"lə oyundan xal alaraq qrupdan çıxa bilər. Düzdür, bu bir qədər çətin olacaq. Çünki həm "Partizan", həm də "Rubin" avrokuboklarda kifayət qədər təcrübəsi olan klublardır. Hələ 2 il bundan əvvəl "Rubin" Çempionlar Liqasında İspaniyanın nəhəng klublarından olan "Barselona"nı məğlub edərək nəyə qadir olduğunu Avropaya sübut etmişdi. Amma bu, futbodur. Burada hər şey olur. İstənilən halda, "Neftçi"dən qələbə gözləyirəm. O ki, qaldı "Partizan"la oyuna, fikrimcə, "Neftçi" ilk oyunda səfərdə heç-heçə edə bilər. İnanıram ki, komandamız Bakıda Serbiya təmsilçisini məğlub edəcək. Cavab oyunlarında "Neftçi"yə dəstək olmaq üçün mən də, hər bir azarkeş kimi, Tofiq Bəhrəmov adına Respublika stadionunda oyunu canlı izləyəcəyəm.

***Azər Əlizadə***

# Rusiya Futbol İttifaqının yeni prezidenti seçilib



Rusiya Olimpiya Komitəsinin (ROK) icraçı direktoru Nikolay Tolstıx Moskvada keçirilən səsvermənin ikinci turunun nəticələrinə görə 148 səs toplayaraq Rusiya Futbol İttifaqının (RFİ) yeni prezidenti seçilib. Seçkilərdə Tolstıxın əsas rəqibi, Rusiya Futbol Premyer Liqasının (RFPL) başçısı Sergey Pryadkin 124 səs, "Novaya generasiya" mini futbol klubunun icraçı direktoru Valeri Beletski bir səs torlayıblar.

Birinci turdan sonra namizədliklərini geri götürdüklərini elan edən Yevgeni Lovtsev, İqor Lebedev, Alişer Aminov isə Nikolay Tolstıxı dəstəkləyiblər.

Nikolay Tolstıx 1974-1983-cü illərdə Moskvanın "Dinamo" klubunun heyətində oynayıb. 1983-cü ildə ağır zədələndiyi üçün inzibati işlə məşqul olub. O, uzun illər "Dinamo" İdman Cəmiyyətinin strukturunda işləyib. 1992-ci ildən RFİ prezidentinin müavini, İcraiyyə Komitəsinin üzvü və Peşəkar Futbol Liqasının (PFL) başçısı olub. 2011-ci il avqustun 17-dən ROK-un icraçı direktorunun müavini işləmiş, elə həmin il sentyabrın 29-dan ROK-un icraçı direktoru vəzifəsinə təyin olunmuşdur. Nikolay Tolstıxın namizədliyi Uşaq Futbol Liqası və Kostroma Futbol Federasiyası tərəfindən irəli sürülüb.